# Müharibənin rəngi olmur...





*Mixail Eminesku adına Moldova Milli Teatrı*
*Rejissor Luminitsa Tsıku*
*“Aclığın uşaqları. Şahidlik”*
*A.Vakulovskinin romanı əsasında*

“Aclığın uşaqları. Şahidlik” tamaşası İkinci Dünya Müharibəsindən sonra, 1946-1947-ci illərdə Moldovadanın Bessarabiya vilayətindəki dəhşətli aclıqdan bəhs edir. Rejissor Luminitsa Tsıkunun yozumunda verbatim üslubunda hazırlanan tamaşada müharibədən sonrakı aclığın, səfalətin canlı şahidlərinin danışdığı real hadisələri Mixail Eminesku adına Moldova Milli Teatrının aktyorları danışırlar. Aktyorlar bir sıra ilə səhnənin lap dərinliyində düzülüb, növbə ilə hadisələri soyuqqanlı şəkildə tamaşaçılara nəql edirlər. Maraqlıdır ki, burada ifaçılar özləri ilə ifa etdikləri obraz arasındakı məsafəni qoruyub saxlaya bilirlər. Onlar şahidləri oynamırlar... onlar şahidlərin real həyat hadisələrini nəql edirlər. Rejissor epik təhkiyəyə söykənən yozumundan qaynaqlanan bu cəhət həm də tamaşanın tempo-ritmini qoruyur. Aktyorların “yadlaşma”sı sayəsində tamaşa yazıqlıq, acizlik hissi yaratmır. Çünki tamaşada inilti yoxdur, amma tamaşaçıda dəhşətli qorxu və acizlik duyğusu yaranır.

Hər dəfə bir əhvalat danışdıqca aktyorlar sinxron şəkildə bir addım önə gəlir. Get-gedə aktyorların silueti vizual olaraq böyüyür və danışdıqları əhvalat adamı sümüyünə, iliyinə qədər vahiməyə bürüyür. Qırmızımtıl ağac ovuntularıyla dolu döşəmədə balaca, palçıqlı bir çərçivəli şüşə var. Bu şüşə parçası qapqara zülmət içində yaşayan aclıq şahidlərinin içindəki gələcəyə ümid parçası kimi “oxunur” və tamaşaçını inandırır ki, məhz bu toz basmış balaca şüşədən süzülən ümid işığı onları dəhşətli aclıq illərindən sağ çıxarıb. O dəhşətli illərin şahidləri bizə - tamaşaçıya yaxınlaşdıqca, bir həqiqət insanın beynini didib-parçalayır: Müharibənin rəngi, iyi, cildi, maskası olmur... müharibə elə müharibədir. Azərbaycanda da, Moldovada da, Ukraynada da, Gürcüstanda da, elə Ermənistanın özündə də... Müharibədə qalib tərəf olmur, müharibədə udan yalnız bir şey var - göz yaşları...

Tamaşa böyük sosial çəkiyə malikdir. Məhz bu cəhət verbatim üslubunda hazırlanan tamaşa üçün çox vacibdir. Hərçənd ki, “Aclığın uşaqları”nı təmiz verbatim kimi qəbul etmək çətindir. Müəyyən məqamlarda temp qırılsa da, Moldova teatrının tamaşası minimal, amma dəqiq ölçülüb biçilmiş hərəkətlərlə və ən əsası, qüsursuz musiqi tərtibatı ilə tamaşaçıya güclü təsir göstərir.

Altay

Kaspi 2020.- 13 fevral.- S.11.